*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 156-161* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.156*

# Cəmşid Əmirov yaradıcılığında psixologizm

**Seyidnisə Lətifli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: seyidnise.letifli@mail.ru

**Annotasiya**. Bəşəriyyət müxtəlif sivilizasiyalardan keçsə də, texnologiya sürətlə inkişaf etsə də, cinayət faktoru daim dünyanın ən qaranlıq guşələrində mövcud olmuşdur. Pul, qısqanclıq, hakimiyyət üzərində gedən çaxnaşmalar, qəzəblərinə məğlub olan insanları bəşəriyyətin bütün dövrlərində rast gəlinən cinayətə sürükləyən vacib faktorlardır. Detektiv əsərin yazılmasında psixologiyanın inteqrasiyası və cinayətin açılması həm oxucular, həm də müstəntiqlər üçün intriqa və valehedici mövzu olmuşdur. İnsan şüuru və onun mürəkkəbliyi ədəbi əsərlərdə obrazların davranışlarının, motivasiyalarının və hərəkətlərinin formalaşmasında mərkəzi rol oynayır.
Cinayət mürəkkəb olduğundan cinayətin izahı mürəkkəb, cəlbedici cavablar tələb edir. Cinayətin üstünü açmaq, onu törədənləri tapmaq və onların təqsirini sübut etmək həmişə asan olmayıb və seçilmişlərə xas olan analitik təfəkkür, ixtiraçılıq və müşahidəçilik tələb edir.
Bu tədqiqat işinin əsas məqsədi detektiv əsərlərdə psixologiyanın rolunu araşdırmaqdır. Məqalədə Cəmşid Əmirovun detektiv yaradıcılığında psixoloji elementlərin müəyyən edilməsi və personajların davranışlarının, motivasiyalarının təhlili və qarşılıqlı təsirlərin araşdırılması başlıca rol oynayır. Psixoloji elementlərin birləşdirilməsi povest və romanlara dərinlik, mürəkkəblik qatmaqla bərabər, həm də personajların xarakteri, davranışları və düşüncə prosesləri haqqında oxucuya maraqlı fikirlər təlqin edir.
Cəmşid Əmirovun detektiv nəsrinin psixoloji cəhətdən təhlil obyektinə çevrilməsi tədqiqatın yeniliyi hesab edilə bilər.
**Açar sözlər:** detektiv, psixologiya, cinayətkar, cinayət, xarakter

**Məqalə tarixçəsi:** göndərilib – 15.02.2024; qəbul edilib – 28.02.2024

# Psychologism in Jamshid Amirov's work

**Seyidnise Letifli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: seyidnise.letifli@mail.ru

**Abstract.** Although humanity has passed through different civilizations and technology has developed rapidly, the criminal factor has always existed in the darkest corners of the world. Money, jealousy, panic over power, people who are defeated by their anger are important factors that lead to crime found in all eras of mankind. The integration of psychology in detective writing and its application in crime solving has been a topic of intrigue and fascination for both readers and investigators. Human consciousness and its complexity play a central role in shaping the behavior, motivations and actions of characters in literary works.

Because crime is complex, explaining it requires complex, compelling answers. Solving the crime, finding the perpetrators and proving their guilt was not always easy and required analytical thinking, ingenuity and observation typical of the chosen ones.
The main purpose of this research work is to investigate the role of psychology in detective works. In the article, the identification of psychological elements and the analysis of the characters' behavior, motivations, and interaction effects play a major role in Jamshid Amirov's detective work. The combination of psychological elements adds depth and complexity to the narratives and novels, but also inspires the reader with interesting ideas about the character, behavior and thought processes of the characters.
Turning Jamshid Amirov's detective prose into an object of psychological analysis can be considered a novelty of the research.
**Keywords:** detective, psychology, criminal, crime, character

**Article history:** received – 15.02.2024; accepted – 28.02.2024

## Giriş / *Introduction*

Bədii ədəbiyyat insan haqqında psixoloji bilik mənbəyi hesab olunur. Bədii ədəbiyyatın humanist funksiyası onun özünəməxsus psixologizmi ilə müəyyən edilir. Azərbaycan ədəbiyyatı mövzu və məzmun baxımından zəngin irsə malikdir. Ədəbi nümunələrimizdə təsvir olunan insan və cəmiyyət, zaman və məkan problemləri, təsvir edilmiş hadisələr illər keçsə də, hər zaman aktuallıq səciyyəsini qoruyub saxlamışdır. XX əsrin 50-ci illərindən Azərbaycan nəsrində insanın daxili aləmini əks etdirmək meyli güclənmişdir. Ədəbiyyatda psixologizm personajların daxili dünyasını tam, dərin və təfərrüatlı şəkildə açmağa yönəlmiş bədii vasitə və üsullar sistemidir. Ədəbiyyat və psixologiya elmi arasında ortaq məqamlardan ən başlıcası insandır. Ədəbiyyat və psixologiyanın ümumi kəsişmə nöqtələrindən meydana gələn ədəbiyyat psixologiyası, mətnin müəllifi və personajların psixoloji quruluşunu və oxucuya təsirini üzə çıxarmaq məqsədi daşıyır.

## Əsas hissə / *Main part*

Psixologizm qəhrəmanın daxili aləminin ədəbiyyat vasitəsi ilə mənimsənilməsi və təsviri, düşüncələrinin, yaşantılarının, istəklərinin, emosional vəziyyətlərinin və s. insanın daxili dünyasının poetik təsvir vasitələrinin mürəkkəb, çoxsəviyyəli sistemidir. A.İezuitov psixologizm probleminin bədii-estetik prinsip və keyfiyyət kimi öyrənilməsində üç mühüm cəhətə diqqət yetirməyi elmi-metodoloji baxımdan zəruri hesab edir. Müəllifin nəzərincə: “1. Psixologizm söz sənəti ilə birlikdə doğulur və bədiiliyin təsdiqində onun üzvi hissəsi kimi çıxış edərək insanı daxili aləmi ilə birgə öyrənir. Bu baxımdan psixoloji analiz bədii düşüncəyə ayrı-ayrı tərəfləri ilə daxil olub öyrənilə bilər. Məsələn, a) xarakter cizgilərinin açılması və ifadəsi; b) cəmiyyətdəki münasibətlərin və məişət qayğılarının xarakterə təsiri; c) hissi hərəkətlər; ç) ehtirasların analizi. Bu mənada psixologizm və psixoloji analiz sənətin əsl daxili mahiyyətinə çevrilir” [8, s.40].

Psixologizm insanın daxili aləminin mənimsənilməsi üsulu kimi ədəbi qəhrəmanın mənlik anlayışı ilə sıx bağlıdır. XX əsrin 50-ci illərində insan psixikasında təhtəlşüurun açılmasına diqqət artır, qəhrəmanın psixologiyasını təsvir edərkən müəllif eyni zamanda şüurla şüuraltının ziddiyyəti, onlar arasında mübarizəni açır [6, s.287]. Qəhrəmanın mənəvi həyatının ən vacib və ya xarakterik problem və hadisələrlə əlaqəsinin real təhlili sovet ədəbiyyatının ayrılmaz xüsusiyyətidir. Məlum olduğu kimi, sosialist realizmi üsulu sənətkarın əsas diqqətini qəhrəmana yönəltməsini nəzərdə

tutur. Psixoloji təhlil sovet nəsri, öz analitik mahiyyətini itirmədən həmişə sosialist cəmiyyətinin həyatının bölünməzliyi və birliyi nəzərə alınmaqla həyata keçirilir [7, s.56].

Görkəmli yazıçı Cəmşid Əmirovun bədii yaradıcılığında qəhrəmanın psixologiyası, daxili aləminin ən dərin qatlarının işıqlandırılması, hiss və həyəcanının rəngarəng çalarlarla təsviri canlı və təbii şəkildə öz əksini tapmışdır. Müəllif həyatı öz məqsədləri, qavrayışları, ideologiyaları və dəyər mühakimələri ilə təmsil edir, təkcə hiss və emosiyalar oyatmaqla deyil, həm də onlara həyatın və varlığın mənasını kəşf etməkdə kömək etməklə oxuculara naməlum və görünməz dünyaların qapılarını açır. Obrazların psixoloji dərinliyi, psixoloji elementlərin süjetə təsiri və cinayətlərin açılmasında psixoloji anlayışların tətbiqi müəllifin yaratmış olduğu detektiv əsərlərdə ön plana çıxır. Müəllif obrazların psixoanalizinə yer verməklə onların motivasiya, qorxu və istəklərinin daha canlı təsvirinə nail olmuşdur. Obrazların keçmiş travmaları, daxili münaqişələri və gizli istəkləri daxili monoloqlar vasitəsilə bizə çatdırılır. Detektiv əsərlərdə psixoloji motivlərə yer verilməsi müəllifin bir çox xarakterin inkişafında psixoloji dərinliyin göstərilməsinə kömək edir. Bunun əhəmiyyəti ondan ibarətdir ki, detektiv əsərlərə xas olan gərgin və həyəcanlı süjetə psixoloji gərginlik də əlavə olunaraq oxucu üçün düşündürücü yeni məqamlar yaranır.

Cinayətkarın aşkarlanmasında cinayətkar psixologiyası mühüm rol oynayır. Müstəntiqlər insanların davranışlarını, onların bədən dilini və qarşılıqlı əlaqələrini diqqətlə izləyir. Onlar cinayətkarın sərgilədiyi incə işarələrə diqqət yetirərək onların üz ifadələri, jestlər və səs tonu kimi fərdi xüsusiyyətləri diqqətdə saxlayırlar. Onlar bu kimi psixoloji siqnalları şərh edərək əsas duyğuları, aldatma və ya gizli niyyətləri aşkar edirlər. Müəllifin "Şəhər yatarkən" povestində müstəntiq Nəcəfov cinayətkar Əbdülqəni Əbdülhüseynovun istintaqı zamanı onun rənginin dəyişməsi, əllərinin əsməsi kimi fiziki xüsusiyyətləri müşahidə edərək onun yalan danışmasını müəyyən etməsi [3, s.10], "Qara Volqa" romanında podpolkovnik Əli Rüstəmov Abram Lifşits və həyat yoldaşı Revekka Solomonovnanı dindirərkən onların pulların miqdarını gizlətməsini onların təlaşından, dediklərinin üst-üstə düşməməsindən və onlara yalan məlumat verməsi zamanı müşahidə etməsi [1, s.36], "Sahil əməliyyatı" povestində isə müstəntiq Oqtay Çingizovun Vittenberqin sorğusu zamanı onun hərəkətləri ilə dediklərinin üst-üstə düşmədiyini cinayətkara bildirməsi və s. kimi psixoloji detallar təsvir olunmuşdur [2, s.200].

Psixoloji motivlər detektiv əsərlərdə hərəkətverici qüvvə rolunu oynayır. Obrazların daxilindəki qısqanclıq, intiqam, nifrət və s. hisslər onları cinayətə təşviq edir. Müəllif cinayətkarların davranış və hərəkətlərini diqqətlə izləyir, onları cinayətə sövq edən psixoloji amilləri göz önündə saxlayaraq bəzən onların keçmişinə işıq salır, şübhəlilərin keçmişi haqqında, onların hazırkı vəziyyətinə təsir edə biləcək psixoloji amilləri axtarır. Əsərlərdə psixoloji təhlil vasitələrinin mənbəyi bunlardır: ədəbi mətndəki insanın özü (onun portreti, nitq xüsusiyyətləri, yuxuları, daxili monoloqları, davranışın psixoloji detalları); qəhrəmanı əhatə edən aləm (əşyalar, ətraf mühit, təbiət); rəvayətin mətndaxili təşkili (süjet-kompozisiya formaları) [4, s.42]. Personajların daxili aləminin təsviri üçün bədii üsullara aşağıdakılar daxildir: "personajın özü ilə daxili dialoqu, məktubu və gündəlikləri, yuxuları, hallüsinasiyaları, xəyalları, baxışları, etirafları, xatirələri, özünümüşahidə" [4, s.25]. Cəmşid Əmirov cinayətkar obrazları təsvir edərkən onları bu yola təşviq edən detalları göz önündə saxlamışdır. Şəxsiyyətin yetişməsində ailə və cəmiyyət faktorunu ön plana çıxararaq yaratmış olduğu obrazları psixoanalitik yolla şərh edir. "Sahil əməliyyatı" povestində müəllif müstəntiq Oqtay Çingizovun nitqi ilə qeyd etmişdir: "Biz onun cəlladlığının səbəbini aşkara çıxarmalıyıq" [2, s.75] – deyə bildirmişdir. Müəllif burada yenə bir cinayətkarın – Vasilinin keçmişinə nəzər salaraq onun daxili düşüncələrində bu yola düşməsinin səbəbini izah edir. Bu əsərdə Vasilinin ərköyün tərbiyə edilməsi onun psixologiyasını korlamışdı, valideynlərinin lüzumsuz yerə onu tərifləməsi, hər dediyini etməsi sonradan onun tüfeyli həyata qoşulmasına gətirib çıxarmışdı. "Şəhər yatarkən" povestində Təvəkkülün bu yola düşməsinin səbəbi təsvir olunur: "Cavanlıqda Təvəkkül pis oğlan deyildi. Atası uşaq olarkən onlara baxmadı, övladlarını

işləməyə məcbur etdikdən sonra onlar artıq fərqli yollarla pul qazanmağa başlayaraq oğurluq yoluna düşdülər" [3, s.89]. "Qara Volqa" romanında Viktoriyanın ərköyün yetişdirilməsi onun gələcəkdə psixologiyasının korlanmasına və əhatəsi pis olan insanlara qoşulmasına yol açır. Anasının Marqaritanı özü kimi lovğa və ikiüzlü böyütməsi, başqalarına nifrət ruhunda tərbiyə etməsi obrazın xarakterinin bu cür formalaşmasına təsir etmişdir. Yaşa obrazını müəllif iki yol arasında təsvir etmişdir. Onun daxilində xeyir və şər qüvvələr mübarizə aparır. Onun ürəyində şər qüvvə qalib gəlir, çoxlu pul qazanmaq arzusu onu oğurluğa aparır. Cinayətkar Bürsəli daxili düşüncələrində doğru yola qayıtmaq, təmizlənmək istəyirdi. Pəncəli Aslanın cinayətkar olmasında atası Ağaməmmədin rolu böyükdür. Oğlan övladı olmadığı üçün qızını "aslanın erkəyi, dişisi olmaz" devizi altında qatı cinayətkar olaraq yetişdirir. "Brilyant" məsələsi povestində müəllif Rantik obrazını oğurluğa gətirən səbəbləri göstərərkən onun keçmişinə – uşaqlığına nəzər salır. Onu cibgirliyə gətirib çıxaran yalançılığı olmuşdu. Yalan danışmağı valideynlərindən öyrənmişdi. İnək oğrusu İbadı cinayət yoluna gətirib çıxaran səbəbin valideyn diqqətsizliyi, xüsusilə də atasının uşaq yaşlarından onlara baxmaması ilə izah edirdi.

İnsanın psixoloji vəziyyətini müxtəlif cür təsvir etmək olar: a) birbaşa: müəllif qəhrəmanın emosional və psixi vəziyyətini işıqlandırmaq məqsədi daşıyır. O, qəhrəmanın danışıq, yazılı və ya daxili nitqindən (monoloq, yuxu) istifadə edə bilir; b) dolayı yolla – müəllif personajın daxili aləmini ifadə etmək üçün jest, davranış və mənalı jest kimi kənar cəhətlərdən də istifadə edir [5, s.16]. Müəllif müəyyən vaxtda personajın psixoloji vəziyyətini təsvir etmədən, oxucuya müstəqil olaraq psixoloji təhlil aparmağa və personajın hazırda nələr yaşadığını müəyyən etməyə imkan verə bilər. Belə bir sükut daxili aləmin olduqca geniş təsvirini yaradır, çünki yazıçı heç nəyi möhkəm etmir, oxucunu konkret dairələrlə məhdudlaşdırmır və təxəyyülə tam parlaqlıq verir. Məsələn, "Tək əldən də səs çıxar" povestində müəllif Yusif obrazını daxili düşüncələri və ziddiyyətləri ilə təsvir etmişdir. Müharibə bir gəncin psixologiyasının pozulmasına, onu içindəki qorxu və intiqam hissinin qatil olmasına gətirib çıxarmışdır. O, qatil olduqdan sonra daxili düşüncələrə qərq olur, hallüsinasiyalar, yuxusuzluq və s. psixoloji çevrilmələri müəllif təsvir etmişdir.

Psixologizmin üstünlük qazandığı nəsr əsərlərində özünütəhlilin ətraf aləmi təhlillə bağlılığı özünü təkcə onda göstərmir ki, müəllif ara-sıra qəhrəmanın düşüncələrinin ifadəsindən baş verən əhvalatların bilavasitə təsvirinə keçir. Ən başlıcası, onda göstərir ki, ətraf aləm qəhrəmanın fikir dünyasında, onun daxili hekayə və dramında iştirakçı kimi çıxış edir. Qəhrəmanın duyğu və düşüncələri xarici təsir sayəsində oyandığına görə, o özü barədə düşünərkən eyni zamanda ətraf mühit, orada baş verən hadisələr barədə düşünmüş olur. Psixoloji nəsrdə təsvir predmeti özünü iki dəfə göstərir: bir yaradılan, təsvir olunan obyektiv fakt kimi və bir də yaşanılmış fakt kimi; fikirlər, mülahizələr, qiymətlər predmeti-emosianal-əxlaqi münasibətlər kimi [5, s.12]. Predmeti bu cür təqdim etməyin geniş yayılmış formalarından biri birinci şəxsə aid təhkiyə tipidir. Qəhrəmanın təbiətindəki daxili narahatlıq və götür-qoy hissi təbii olaraq təhkiyədə təhlili başlanğıcın güclənməsini şərtləndirir. İnteryerin təfərrüatla təsvir edilməsi realist nəsr üçün təbii bir haldır. O da təbiidir ki, bu təsvir heç də həmişə hansısa xarakteri açmağa doğru yönəldilmir. Lakin psixologizmi özünün ayrılmaz keyfiyyətinə çevirən, bədii inikasda personajların dünya duyumuna əsaslanan realist nəsr interyerin, məsələn, müəyyən bir evin içindəki əşyaların təsvirini ayrı-ayrı "mən"lərin daxilindəki duyğuların ifadə vasitəsi kimi monoloqun "monoloq-nitq", monoloq-söhbət, monoloq-düşüncə və monoloq-təhkiyə müxtəlif tiplərini qeyd edir [4, s.150]. Belə müxtəliflik daxili monoloqa da aiddir. Daxili monoloq – daxili nitq, söhbət və düşüncə formalarında təzahür edir. Daxili monoloqun məzmun və forması qəhrəman tipindən söz sənəti tarixində düşünə bilmək xüsusi estetik mahiyyət kəsb edir: adətən, o qəhrəmanlar düşünürlər ki, onlar özləri və ətraf mühit hadisələrini qiymətləndirməyi bacarırlar; düşünən qəhrəman, sadəcə olaraq, mühitin sıravi nümayəndələrindən biridir, mühitlə konfliktə girə biləcək bir adamdır; o, daxili konflikt, ikiləşmə anları yaşayır, özünü yad bir adam kimi təhlil və ittiham edə bilir [7, s.57]. Cəmşid Əmirovun

"Mənim ilk məhəbbətim" romanında Ervin Ekkert obrazının daxilində ikiləşmə anları yaşanır. O, uşaq ikən anası və əkiz qardaşından ayrılmış, atası ilə böyümüşdür. O, Almaniyada casus olaraq yetişmiş, bu məqsədilə Sovet Respublikasına gəlmişdir. Müəllifin yaratdığı obraz çinar ağacını görməklə keçmişə qayıdır, bütün uşaqlığı gözünün önündə canlanır, anasını xatırlayır. Qəlbində yaranan işığı, xoş xatirələri bir göz qırpımında qaranlıq tərəfi olan casusluğu söndürür. Müəllif obrazın daxilində olan ziddiyyəti müxtəlif məqamlarda vurğulamışdır. Ervinin anası ilə olan səhnə bu baxımdan daha təsirlidir: "Əlindəki tapança ilə anasını yaralayan Ervin daxmadan çıxdı. Geri qayıdıb anasına kömək etmək istədi. Lakin tərəddüd etdi. Onun qəlbində oyanan iki hiss – mərhəmət və qorxu duyğuları arasında ani mübarizə başladı. O, anasının nəbzini yoxladıqdan sonra qaçıb getdi" [3, s.150].

Ç.Hüseynov müasir sovet nəsrində "etiraf"ın üç təxmini şərtini və tipini müəyyənləşdirmişdir: 1) yüksək əxlaqlı insanın etirafı, 2) mənəvi təmizlənmə hissi keçirən, 3) keçmişə qayıdaraq düşüncə və hərəkətlərindəki durğunluğun səbəbini öyrənməyə çalışan insanın etirafı, 3) mənəvi cəhətdən pozulmuş, lakin bu pozğunluqdan qurtarmağa can atan insanın etirafı [4, s.78]. Qəhrəmanı keçmişə qaytarmaq detalı onun şəxsiyyətinin zamanla necə formalaşdığını daha aydın nümayiş etdirir. Yazıçı yaratmış olduğu obrazlar vasitəsi ilə ictimai həyatı, insanın daxili aləmini, həyata baxışını, arzu və düşüncələrini açmağa nail olur. Obraz müəllifin ideyalarının, bədii təfəkkürünün daşıyıcısıdır. C.Əmirovun yaratmış olduğu obrazları mənfi və müsbət olaraq iki qrupa ayırmaq mümkün deyil. O, təsvir etmiş olduğu obrazları mənfi olduğu üçün qaranlıq bir mühitə salmır, olarun bu qaranlığa necə düşdüyünü oxucuya göstərir, müsbət qəhrəmanı ucaltmır, onların da səhvləri olduğunu qeyd edir. "Mənim əsl məhəbbətim" romanında Hans Şpellerin qorxuları və onun cinayətkarlıqdan uzaqlaşmaq istəməsi, "Sahil əməliyyatı" povestində Nikezin Neçipurenkinun xəyalında sakit həyatı arzulaması, boynundakı buxovlardan azad olunmaq istəyi və s. amillər müəllifin cinayətkar obrazların mənəvi təmizlənmə istəyi ilə bağlıdır. Müəllif əsərdə yaratmış olduğu dialoq və monoloqlar vasitəsilə obrazların daxili mənini, onun fərdi xüsusiyyətlərini diqqətə çatdırır. Onun əsərlərində yaratmış olduğu cinayətkar obrazlarının bəziləri mənəvi təmizlənmə hissi keçirmiş, hətta mənəvi təmizləmə yolu keçdikdən sonra əxlaqlı həyata dönmüşdür. Cəmşid Əmirov "Qara Volqa" romanında keçmiş cinayətkar Mübarək Novruzzadənin təmizlənmə yolu keçdikdən sonrakı həyatını təsvir etməklə bunun mümkün ola biləcəyini göstərmişdir.

## Nəticə / *Conclusion*

Psixologiyanın detektiv ədəbiyyata inteqrasiyasının fonunun dərk edilməsi və onun cinayətlərin açılmasında praktik tətbiqi əsərlərin hərtərəfli tədqiqi üçün zəmin yaradır. Cəmşid Əmirov psixologizmi özünütəhlil, fərdin psixologiyası, millilik, tarixilik və bəşərilik axarı ilə irəliləmiş, monoloq, dialoq, qəhrəmanların davranışı və xarakteri müstəvisində formalaşmışdır.

## Ədəbiyyat / *References*

1. Əmirov, C. Qara Volqa. – Bakı: Qanun, 2020. – 412 s.
2. Əmirov, C. Sahil əməliyyatı. – Bakı: 2017. – 307 s.
3. Əmirov, C. Şəhər yatarkən: Povestlər. – Bakı: Yazıçı, 1982. – 197 s.
4. İmanov, M. Müasir Azərbaycan nəsrində psixologizm. – Bakı: 2021. – 168 s.
5. Prerna Rao, Dr. Aparna. Exploring the psychological depths: The role of psychology in writing detective fiction and crime detection. International Journal for Multidisciplinary Research.Volume 6, Issue 1, – January-February 2024.
6. Seyidzadə, C. Ədəbiyyatda psixologizm probleminin tarixi. Dil və ədəbiyyat: Beynəlxalq-elmi nəzəri jurnal. 2019.

7. Андреевич, К.Е. О роли художественной литературы в познании психологии человека. Вестник Тамбовского университета. Серия: Гуманитарные науки 6 (122). 2013.
8. Иезуитов, А. Проблема психологизма в эстетике и литературе. Наука, 1970.

## Психологизм в творчестве Джамшида Амирова

**Сейидниса Латифли**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: seyidnise.letifli@mail.ru

**Резюме.** Хотя человечество прошло через разные цивилизации и технологии быстро развивались, криминальный фактор всегда существовал в самых темных уголках мира. Деньги, зависть, паника по поводу власти, люди, побежденные своим гневом, – важные факторы, приводящие к преступлениям, встречающимся во все эпохи человечества. Интеграция психологии в детективное письмо и ее применение в раскрытии преступлений была темой интриги и восхищения как для читателей, так и для следователей. Человеческое сознание и его сложность играют центральную роль в формировании поведения, мотивации и действий персонажей литературных произведений.
Поскольку преступность сложна, ее объяснение требует сложных и убедительных ответов. Раскрыть преступление, найти виновных и доказать их вину не всегда было легко и требовало аналитического мышления, смекалки и наблюдательности, свойственных избранным.
Основной целью данной исследовательской работы является изучение роли психологии в детективном произведении. В статье выявление психологических элементов и анализ поведения, мотивации и эффектов взаимодействия героев играют важную роль в детективном творчестве Джамшида Амирова. Сочетание психологических элементов придает повествованиям и романам глубину и сложность, а также вдохновляет читателя на интересные идеи о характере, поведении и мыслительных процессах героев.
Новинкой исследования можно считать превращение детективной прозы Джамшида Амирова в объект психологического анализа.
**Ключевые слова:** детектив, психология, преступник, криминал, персонаж